## Azərbaycan Respublikası

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının

## S Ə R Ə N C A M I

**№ 10** **04 fevral 2015-ci il**

**Siyəzən rayonunda Xocalı soyqırımının iyirmi üçüncü ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında**

"Xocalı soyqırımının iyirmi üçüncü ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2015-ci il 26 yanvar tarixli 6 nömrəli Sərəncamını rəhbər tutaraq **qərara alıram:**

1. Siyəzən rayonunda Xocalı soyqırımının iyirmi üçüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
2. Tədbirlər planında nəzərdə tutulmuş işlərin həyata keçirilməsinə məsul şəxslər həmin tədbirlərin yerinə yetirilməsini təmin etsinlər.
3. Sərəncamın icrasına nəzarət Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarovaya tapşırılsın.

**Arif Qasımov**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının
2015-ci il 04 fevral tarixli 10 nömrəli
sərəncamı ilə təsdiq edilmişdir**

**Siyəzən rayonunda Xocalı soyqırımının iyirmi üçüncü
ildönümünün keçirilməsinə dair**

**TƏDBİRLƏR PLANI**

| Sıra №si | Tədbirin adı | İcraçı təşkilat | İcraya məsul şəxs | İcra vaxtı |
|---|---|---|---|---|
| 1. | Siyəzən rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə əklilqoyma mərasiminin keçirilməsi və ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər Xiyabanının ziyarət edilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Siyəzən Rayon İcra Hakimiyyətinin başçısının Siyəzən şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | Təhminə Bəxtiyarova<br>Zəfər Əliyev<br>Etibar Heydərov<br>Xaqani Bəşirov<br>Mais Süleymanov | 26 fevral 2015-ci il |
| 2. | 26 fevral saat 17.00-da rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı | Təhminə Bəxtiyarova<br>Xaqani Bəşirov | 26 fevral 2015-ci il |
| 3. | Xocalı soyqırımı günü ilə əlaqədar rayonun şəhər, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqlarının endirilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Siyəzən Rayon İcra Hakimiyyətinin başçısının Siyəzən şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | Təhminə Bəxtiyarova<br>Zəfər Əliyev<br>Etibar Heydərov<br>Xaqani Bəşirov<br>Mais Süleymanov | 26 fevral 2015-ci il |
| 4. | 26 fevral günü rayonun təhsil müəssisələrində ilk dərsin Xocalı soyqırımına həsr edilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Təhsil şöbəsi | Təhminə Bəxtiyarova<br>Rəfayil Hacıyev | 26 fevral 2015-ci il |
| 5. | Siyəzən rayonu üzrə idarə, müəssisə və təşkilatlarda, mədəni-maarif müəssisələrində, orta məktəblərdə Xocalı soyqırımına həsr olunmuş tədbirlərin (xatirə gecələri, foto və rəsm sərgiləri, şahidlərlə görüşlər və s.) keçirilməsi, milli azadlıq uğrunda mübarizəyə həsr olunmuş sənədli və bədii filmlərin nümayişinin təşkil edilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Mədəniyyət və Turizm Şöbəsi,<br>Təhsil şöbəsi | Təhminə Bəxtiyarova<br>Zəfər Əliyev<br>Xaqani Bəşirov<br>Zəminə Qədirli<br>Rəfayil Hacıyev | fevral 2015-ci il |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Xocalı soyqırımını əks etdirən məlumatların internet şəbəkəsinə daxil edilməsi və mütəmadi olaraq yeniləşdirilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Telekommunikasiya Qovşağı | Təhminə Bəxtiyarova<br>Rəhman Mürvətov<br>Rafiq Kəbirov | mütəmadi |
| 7. | "Çıraq" qəzetində Xocalı soyqırımı ilə bağlı materialların verilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>"Çıraq" qəzeti redaksiyası | Təhminə Bəxtiyarova<br>İlyas İlyasov | 26 fevral 2015-ci il |